Respublika.- 2019.- 6 oktyabr



Bakı Dövlət Universiteti - 100

# Azərbaycanın müstəqillik dövrlərində BDU-nun beynəlxalq əlaqələri

**1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Bu müstəqil demokratik respublika bir sıra sahələrin inkişafı ilə yanaşı, elm və təhsilə də ciddi fikir vermişdir.**

**Bakı Dövlət Universiteti Azərbaycan xalqının Milli sərvətidir.**

**Heydər ƏLİYEV.**

1919-cu il sentyabrın 1-də Azərbaycan Demokratik Cümhuriyyətin parlamenti elmin, maarifin inkişaf etməsində ali təhsilin böyük xidmətləri olacağını nəzərə alaraq Bakıda universitet açılması haqqında qanun qəbul etmişdir. Qanunda deyilirdi ki, Bakı şəhərində açılacaq universitetin Şərq şöbəsi ilə birlikdə tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri fəaliyyətə başlamalıdır.

Beləliklə, müxtəlif iqtisadi və siyasi çətinliklərə sinə gərərək 1919-1920-ci tədris ili üçün Şərq şöbəsi də olmaqla tarix-filologiya və tibb fakültələri üzrə 1919-cu il noyabr ayının 15-də universitetdə ilk dərs günü keçirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı bu universitetin ilk rektoru professor Vasili İvanoviç Razumovski olmuşdur. O, bu təhsil ocağı haqqında yazmışdır ki, "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edə bilərik".

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bolşeviklərin hakimiyyətə gəlməsi respublikanın bütün sahələrində dəyişikliyə səbəb olduğu kimi, Bakı Dövlət Universitetinin tədrisində də dəyişikliklərə səbəb oldu. Universitetdə 1920-ci ildə fizika-riyaziyyat, 1922-ci ildə isə Şərq fakültələri yaradılmışdır. Universitet yarandığı gündən müasir dövrə kimi bir sıra çətinliklərlə də üzləşmişdir. 1926-cı ildə Azərbaycan Dövlət Universitetinə ilk azərbaycanlı Tağı Şahbazi (Simurq) rektor təyin edilmişdir. 1928-ci ildə hüquq fakültəsi yaradılmışdır. Məlum olduğu kimi, 1930-1934-cü illərdə Azərbaycan Dövlət Universitetinin fəaliyyəti dayandırılmışdır. Onun ayrı-ayrı fakültələrinin bazası əsasında yeni müstəqil Azərbaycan Dövlət Tibb İnstitutu, Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutu yaradılmışdır. 1934-1935-ci tədris ilində universitetin fəaliyyəti yenidən bərpa olunmuşdur. 1934-cü ildə Universitetdə biologiya, 1935-ci ildə kimya, 1943-cü ildə isə geoloji-coğrafiya fakültələri yaradılmışdır.

1937-ci il repressiyalar dövründə Azərbaycan Dövlət Universitetinin rektorları olmuş T.Şahbazi, M.Məmmədov, M.Ələkbərli, B.Həsənbəyova, onlarca dekan və professorlarına, müəllimlərinə "xalq düşməni", "türkçü", "turançı", "xain" və s. "adları" verilmiş 100 nəfərədək əməkdaşın bəziləri güllələnmiş, bir çoxu isə Sibirə sürgün olunmuşdur.

II Dünya müharibəsi dövründə 1385 nəfər, o cümlədən 159 akademik işçi, 23 nəfər aspirant, 1203 nəfər tələbə səfərbər olunmuşdur. Cəbhəyə gedənlər arasında 200-dən çox qadın olmuşdur. Müharibədən qayıdanlar tədricən universitetə bərpa olunmuşlar.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1969-cu ildə Azərbaycan Dövlət Universitetini yaranmasının 50 illiyi münasibətilə "Qırmızı Əmək Bayrağı Ordeni" ilə təltif etmişdir. Yubiley təntənə isə indiki Şəhriyar adına klubda keçirilmişdir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev mərasimdə Azərbaycan dilində çıxış etmişdir. Sonrakı ildə o, bu Təhsil Ocağının bayrağına "Qırmızı Əmək Bayrağı Ordeni"ni sancmışdır. Ümummilli lider çıxışında demişdi: "Azərbaycan torpağında birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycan Dövlətinin hüdudlarından çox-çox kənara çıxır. Azərbaycan xalqının və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Azərbaycan Dövlət Universitetinin tarixi xidməti bir də ondadır ki, o, Azərbaycan xalq təsərrüfatı, elm və mədəniyyəti üçün yüksəkixtisaslı mütəxəssislərin böyük bir dəstəsini hazırlamışdır".

90-cı illərdə SSRİ-nin dağılması, Azərbaycan Respublikasının öz müstəqilliyini elan etməsi nəticəsində ADU yeni bir mərhələyə qədəm qoydu. 1991-ci ildə onun tarixi adı - BDU özünə qaytarıldı.

1993-cü ildə ölkə rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev Azərbaycan elminin inkişafına xüsusi qiymət verdi: "Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir".

Hazırda Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələri gündən-günə genişlənir. Universitetdə Beynəlxalq Əlaqələr üzrə prorektorluq yaradılmışdır. Onun nəzdində konsul-protokol və xarici əlaqələr şöbələri geniş fəaliyyət göstərir. Universitetin 16 fakültəsində 14 ölkədən - Türkiyə, Çin, İran, Almaniya, Yaponiya, Koreya, Misir Ərəb Respublikası, İsrail, keçmiş SSRİ-nin respublikalarından gəlmiş tələbələr bakalavr, magistr, aspirant, dissertant, doktorant formasında elmin, təhsilin müxtəlif formalarına yiyələnirlər.

Ölkə müstəqilliyini bərpa etdikdən sonra universitet keçmiş sovet respublikalarının ali məktəbləri ilə geniş müqavilələr bağlamışdır. Eyni zamanda, dünyanın tanınmış bir sıra universitetləri Sarbon III Universitetin Montpellier Universiteti (Fransa); Varşava Universiteti (Polşa); Florensiya Universiteti (İtaliya); Çuma Universiteti (Yaponiya); Pay Çay Universiteti, Sunlin Kolec Universiteti (Cənubi Koreya); Qahirə Universiteti (Misir Ərəb Respublikası); İslam Aləmi Liqası (Səudiyyə Ərəbistanı); Türkiyənin 15 və digər ölkələrin universitetləri ilə beynəlxalq müqavilələr bağlanmışdır. Dünya ölkələrinin universitetlərinin rəhbərləri tez-tez Bakı Dövlət Universitetinin qonaqları olur və bu əməkdaşlığa yüksək qiymət verirlər.

Bakı Dövlət Universitetində NATO məktəbi yaradılmışdır. NATO-ya üzv müxtəlif ölkələrdən gələn nümayəndələri ilə tələbələrin görüşləri keçirilir.

Müasir dövrdə BDU Avropa Universitetlərinin yaratdıqları Assosiasiyanın da üzvüdür. Universitetin digər ölkələrlə elmi əlaqələri getdikcə genişlənir.

Dünyanın görkəmli tarixi şəxsiyyətlərinin bir çoxu Bakı Dövlət Universitetinin fəxri doktorları adına layiq görülmüşdülər. Ulu öndərimiz Heydər Əliyev (1994), Azərbaycan Prezidenti İlham Əliyev (2009), Qeyri-səlis məntiq nəzəriyyəsinin müəllifi Lütfi Zadə (Lütfəli Rəhim oğlu Əsgərzadə) (1993), Türkiyə Cümhuriyyətinin IX Prezidenti Süleyman Dəmirəl (1994), Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze (1997), YUNESKO-nun baş katibi Koiçiro Matsuura (1999), Moldova Respublikasının Prezidenti Petru Kiril Luçinski (2001), NATO-nun baş katibi Corc Robertson (2001), ABŞ-ın dövlət katibi Zbiqnev Brejinski (2001), Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül (2006), M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Antonoviç Sadovniçi (2007), Rusiya Federasiyasının Prezidenti Dmitri Anatolyeviç Medvedev (2010), Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif (2016) və digər təxminən dünyanın 60 nəfərdən çox siyasət elm və təhsil nümayəndəsi, dövlət rəhbərləri BDU-nun fəxri doktoru adına layiq görülmüşdür.

Tələbələrin təlim-tərbiyəsi ilə 4 min 500 nəfərdən çox müəllim məşğul olur. Onların təxminən 200 nəfərdən çoxu dövlətin ali orden və medalları ilə təltif olunmuşdur. Universitetin 20 nəfərə kimi müəllimi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvüdür, 12 nəfər Azərbaycan Milli



Məclisinin deputatıdır, 5 nəfər Dövlət mükafatı almış, 18 nəfər Prezident təqaüdçüsüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BDU-nun 100 illik yubileyini keçirmək üçün fərman vermişdir. Həmin istiqamətdə bir sıra tədbirlər həyata keçirilmiş, müvafiq tədbirlər planı hazırlanmışdır. Bu planlar içərisində dünya ölkələrinin universitetlərindən 100 illik yubileyə dəvət olunacaq qonaqların təxmini siyahıları hazırlanmışdır.

Hazırda dünyanın 24 ölkəsinin 60-dan çox universiteti ilə əməkdaşlıq edən BDU-nun 100 illik yubileyini UNESCO 12 iyun 2019-cu ildə Fransanın Paris şəhərində təntənə ilə qeyd etmişdir.

Yığıncaqda Azərbaycanın Fransadakı səfiri Anar Kərimov, Təhsil naziri Ceyhun Bayramov, BDU-nun rektoru Elçin Babayev və başqaları çıxış etmişlər. Onlar bu il 100 yaşı tamam olacaq BDU-nun tarixi, bu günü və gələcəyi haqqında yığıncaq iştirakçılarına geniş məlumat vermişlər. Sonda Universitet haqqında kiçik videofilm göstərilmiş, sonra tamaşaçılara Azərbaycan Mədəniyyət Nazirliyinin təşkil etdiyi proqram üzrə geniş səpkidə konsert verilmişdir.

**İsmayıl EYYUBOV,**
**BDU, beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin politologiya və sosiologiya kafedrasının dosenti.**